Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Müsəlman ölkəsində bütün başqa dini icmalara dövlət yardımı - unikal Azərbaycan nümunəsi...

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**Azərbaycan dünyaya birgəyaşayışın, multikulturalizmin və tolerantlığın ən zəngin örnəyini təqdim edir. Bəzi ölkələrdən fəqrli olaraq Azərbaycan bu münasibəti konkret əməllər nəticəsində sərgiləyir. Bu gün Azərbaycan Respublikası ərazində müxtəlif etnik mənşəyə və dinə məxsus insanlar yaşayır, heç kəs dini inancına, milli kimliyinə, irqinə və sairə görə heç bir ayrı-seçkiliklə üzləşmir.**

Gerçəklik odur ki, Azərbaycanın dünyaya nümunə olan hazırkı mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və əminamanlıq şəraitində dinc yanaşı yaşamalarının nəticəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün davamlı zəmin yaratmış bu etnik rəngarəngliyin qorunub saxlanması çox vacib olub və bu bu müstəqil dövlətçiliyin əsaslarının daha da möhkəmləndirilməsinə xidmət edib.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti dəfələrlə Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncamlar imzalayıb, dini qurumlara, təşkilatlara dövlətin dəstəyini göstərib. Diqqət çəkən məqamlardan biri odur ki, Azərbaycan dövləti bu yardımları ayırarkən hem bir ayrı-seçkiliyə yol verməyib. Məlum, bizim ölkədə əhalinin çox böyük hissəsini islam dininə mənsub insanlar təşil edir, amma pararlel olaraq başqa dinlərin nümayəndələri, dini ibadət ocaqları mövcuddur. Onların fəaliyyətinə də geniş imkanlar yaradılıb. Bu gün Azərbaycanda fəaliyyət göstərən dini icmalar dövlətin qayğı və diqqəyi ilə əhatə olunub, eyni zamanda da cəmiyyət tərəfindən böyük sayğı ilə qarşılanır.

Azərbaycanda dini qurumlara maddi yardımların edilməsi sözün həqiqi mənasında çox unikal nümunədir... Deyə bilərik ki, dövlətlərin çoxunda dini icmalara bu cür ciddi dəstək yoxdur.

**Müxtəlif dinlərə bərabər münasibət...**

Azərbaycan dövləti dini qurumlara ardıcıl olaraq hər il maliyyə yardımı ayırır, bununla da onların fəaliyyətinə dəstək göstərir. Məsələn, ayrı-ayrı vaxtlarda Qafqaz Müsəlmanları İdarəsinə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına, Avropa yəhudilərinin Bakı dini icmasına, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna, Respublikasının Alban-Udi xristian dini icmasına pul ayrılıb, onların fəaliyyətinə dövlət təkan verib.

Bildiyimiz kimi, Prezident İlham Əliyev bu istiqamətdə növbəti sərəncamı 8 fevral 2023-cü il tarixində imzalayıb. Sərəncamla Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350 min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350 min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350 min manat ayrılıb.

**Cəmiyyətdə həmrəyliyi gücləndirən sənədlər...**

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Azərbaycanda multikulturalizm və dini tolerantlıq dünyada çox üstün səviyyədədir. F.Hacıbəylinin sözlərinə görə, bu, Azərbaycan cəmiyyətində təbii bir ab-havadır və bunu heç zaman dəyişmək mümkün deyil. Azərbaycanda dini qurumlara fərq qoyulmadan onlara maliyyə yardımının ayrılmasının cəmiyyətin, dövlətin daha da möhkəmlənməsində, birliyin, həmrəyliyin bərqərar olmasında mühüm rol oynayır. "Bizim ölkənin əhalisinin böyük əksəriyyəti müsəlman olsa da, bizdə başqa dinlərin nümayəndələrinə də hərtərəfli sayğı var. Prezident Sərəncamında deyildiyi kimi, "Azərbaycanda yaşayan ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür. Dünyada nümunəvi tolerantlıq məkanına çevrilmiş ölkəmizdə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi, habelə etnik-dini müxtəlifliyin qorunub saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşdirilməsi, tolerantlıq və mədəni müxtəliflik ənənələrinin təbliği və təşviqi cəmiyyətdə milli-mənəvi həmrəyliyin güclənməsinə və qarşılıqlı anlaşma münasibətlərinin ahəngdar inkişafına xidmət edir". Prezidentin bu istiqamətdə imzaladığı sərəncamlar Azərbaycanda dini, milli tolerantlığın nümunəsidir ki, əhalisinin mütləq əskəriyyətinin islam dininə tapınmasına baxmayaq, dövlət digər dinlərdən olan konfesiyalara da heç bir fərq qoymadan maliyyə ayırır"-deyə müsahibimiz vurğuladı.



Qeyd edək ki, Azərbaycan prezidentinin ölkənin dini qurumlarına maliyyə yardımı göstərilməsi haqqında sərəncamına əsasən, 2020-ci ildə Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2 mln. manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasına 350 min manat, Bakı şəhəri Dağ Yəhudiləri İcmasına 350 min manat, Avropa Yəhudilərinin Bakı Dini İcmasına 150 min manat, Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150 min manat, Alban-Udi xristian dini icmasına 150 min manat ayrılıb.

Ölkənin digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100 min manat ayrılıb.

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılıb.

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılıb.

Təqdim etdiyimiz nümunələr son 3-4 ili əhatə edir, amma ondan əvvəlki illərdə də Prezident tərəfindən dini qurumlara vəsait ayrılıb. Əlbəttə, bu dövlətin qayğı siyasətidir, dünən də olub, bu gün də var, sabah da olacaq...

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**